# Məşhurların fikirləri

Xalqlarımız arasında qədim tarixə və qardaşlığa söykənən Türkiyə-Azərbaycan münasibətləri Zati-alinizin rəhbərliyi və birgə səylərimizlə yüksək səviyyəyə çatıb. Zati-alinizin növbəti illərdə də bu istiqamətdə mühüm töhfələr verməyə davam edəcəyinə ürəkdən inanıram.

Öz gücünü ortaq dil, din, tarix, mədəniyyət və dəyərlərimizdən alan dostluq və qardaşlıq münasibətlərimizin müdrik rəhbərliyiniz ilə gündən-günə inkişaf edib güclənməsini məmnuniyyətlə müşahidə edirəm.

***Rəcəb Tayyib Ərdoğan***
***Türkiyə Respublikasının Prezidenti***

***

"Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ardıcıl fəaliyyət xətti və Sizin məqsədyönlü, qurucu siyasətiniz sayəsində dövlət müstəqilliyinin möhkəmləndirilməsi, Azərbaycan xalqının rifahının artırılması, ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsi yolunda, həqiqətən, genişmiqyaslı sıçrayış edilmişdir. İ.Əliyevin simasında Azərbaycanın müstəqilliyi və suverenliyinin daha da möhəmlənməsini, iqtisad tərəqqisini və beynəlxalq nüfuzunun yüksəlməsini qarşısına məqsəd qoyan dövlət xadimi görürəm."

**İslam Kərimov**
***Özbəkistan Respublikasının keçmiş prezidenti***

***

Hörmətli İlham Əliyev Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsindən on il keçəndən, böyük lider, dövlətin qurucusu Heydər Əliyev vəfat edəndən sonra Azərbaycan xalqı tərəfindən bu ali vəzifəyə ilk dəfə seçilmişdir. Beş il sonra keçirilən seçkilərdə də yenidən Azərbaycan Prezidenti seçilmişdir. Göründüyü kimi, çox mürəkkəb bir dövrdə çox çətin bir işi öhdəsinə götürmüş və bunu müvəffəqiyyətlə yerinə yetirmişdir. Uğurlarının təsdiqi bu gün Azərbaycanda gördüklərimizdir.

***Süleyman Dəmirəl***
***Türkiyə Respublikasının IX Prezidenti***

***

Lütfən, vaxtilə dövlətinizin başçısı Heydər Əliyevi təltif etdiyimiz "Fəxri legionun böyük xaç komandoru" ordenini qəbul edin. Atanızın başladığı nümunəvi fəaliyyətin davamı olaraq ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin gücləndirilməsi naminə gələcəkdə də Sizinlə əməkdaşlıq etməkdən sevinc duyuram."

**Jak Şirak**
***Fransa Respublikasının keçmiş prezidenti***

***

Azərbaycan dövlətinin inkişafının sosial-iqtisadi, mədəni sahələrdə sanballı uğurlar qazanılması və beynəlxalq mövqeyinin möhkəmlənməsi ilə əlamətdar olan ən mühüm dövrü bilavasitə Sizin adınızla bağlıdır. Siz öz xalqınızın əsl lideri, onun amal və istəklərinin ifadəçisisiniz. Sizin həm ölkədə, həm də onun hüdudlarından kənarda yüksək siyasi nüfuzunuz şəksizdir.

Siz Azərbaycanın sosial-iqtisadi inkişafı üçün çox işlər görən təcrübəli və uzaqgörən dövlət xadimi kimi haqlı olaraq həmvətənlərinizin səmimi hörmətini qazanmısınız və beynəlxalq aləmdə yüksək nüfuza sahib olmusunuz. Rusiyada Sizi ölkəmizin etibarlı dostu, Rusiya-Azərbaycan strateji tərəfdaşlığının, müxtəlif sahələrdə ikitərəfli qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsinin prinsipial tərəfdarı kimi tanıyırlar.

**Vladimir Putin**
***Rusiya Federasiyasının Prezidenti***

***

Biz Sizin Azərbaycan xalqının, ölkənizin, şəhərinizin rifahı üçün gördüyünüz bütün işləri müşahidə edirik. Beləliklə, Azərbaycan xalqına dost, ona etimad bəsləyən, xoş gələcək, əmin-amanlıq və firavanlıq arzulayan Qazaxıstan həmişə Sizin yanınızda olacaq.

***Nursultan Nazarbayev***
***Qazaxıstan Respublikasının keçmiş Prezidenti***

***

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ardıcıl fəaliyyət xətti və Sizin məqsədyönlü, qurucu siyasətiniz sayəsində dövlət müstəqilliyinin möhkəmləndirilməsi, Azərbaycan xalqının rifahının artırılması, ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsi yolunda, həqiqətən, genişmiqyaslı sıçrayış edilmişdir. İlham Əliyevin simasında Azərbaycanın müstəqilliyi və suverenliyinin daha da möhəmlənməsini, iqtisad tərəqqisini və beynəlxalq nüfuzunun yüksəlməsini qarşısına məqsəd qoyan dövlət xadimi görürəm.

**İslam Kərimov**

***Özbəkistanın keçmiş Prezidenti***

***

Azərbaycan xalqının ümummilli lideri mərhum Heydər Əliyevin istəyi var idi ki, Azərbaycan-İran münasibətləri bütün sahələrdə daha da inkişaf etsin. Bu, onun davamçıları, yəni bizlər tərəfindən həyata keçirilir və keçiriləcəkdir. Əminəm ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də siyasi bacarığı və idarəçilik qabiliyyəti ilə Azərbaycanı gündən-günə daha da inkişaf etdirəcəkdir.

**Məhəmməd Hatəmi**

***İran İslam Respublikasının keçmiş prezidenti***

***

Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası uğurlu inkişafını davam etdirir, ölkə həyatının bütün sahələrində yüksək nailiyyətlər nümayiş etdirir, beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirir.

***Viktor Yanukoviç***
***Ukraynanın keçmiş Prezidenti***

***

Siz Azərbaycanın ümummilli lideri Heydər Əliyevin işini layiqincə davam etdirərək Vətənə yorulmadan xidmət etmək nümunəsinə çevrilmisiniz. Sizin bilikləriniz, möhkəm iradəniz və siyasi müdrikliyiniz sayəsində iqtisadi cəhətdən güclü və mütərəqqi Azərbaycan Respublikası bu gün gələcəyə inamla baxır, beynəlxalq münasibətlərin nüfuzlu iştirakçısıdır.

Sevindirici haldır ki, Sizin iyirmi il bundan əvvəl müdrikcəsinə söylədiyiniz "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram" sözləriniz gerçəyə çevrildi. Mən bilirəm ki, Azərbaycan xalqı dövlətin iqtisadi və sosial inkişafına, onun xarici siyasi maraqlarının müdafiəsinə, vətəndaşların rifahının yüksəlməsinə yönəlmiş səylərinizi yüksək qiymətləndirir. Qardaş Azərbaycan Sizin bacarıqlı və qətiyyətli rəhbərliyiniz sayəsində regionda və möhkəmlənməkdə olan türk dünyasında getdikcə daha mühüm rol oynayır. Belarusun da iştirakçısı olduğu Qoşulmama Hərəkatında uğurlu sədrlik Bakıya beynəlxalq nüfuz və dərin hörmət qazandırıb.

***Aleksandr Lukaşenko***
***Belarus Respublikasının Prezidenti***

***

Qardaşım Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökumətinin siyasəti dahi atasının baxışlarının həyata keçirilməsinin bariz nümunəsidir. Sizin müdrik rəhbərliyiniz ilə Azərbaycan beynəlxalq arenada layiqli yerini tutub.

***Məmnun Hüseyn***
***Pakistan İslam Respublikasının Prezidenti***

***

Möhtərəm Heydər Əliyevin öz işinə son dərəcə ciddi yanaşması və nəhəng, zəngin həyat təcrübəsi mənim xatirimdə həmişə qalacaqdır. Demək istəyirəm ki, onun layiqli davamçısı Prezident İlham Əliyev də işə bu ciddi yanaşmanı və nəhəng təcrübəni ondan öyrənib bu gün də uğurla davam etdirir.

***Konstantinos Stefanopulos***
***Yunanıstanın keçmiş Prezidenti***

***

Azərbaycan xalqının ümummilli lideri mərhum Heydər Əliyevin istəyi var idi ki, Azərbaycan-İran münasibətləri bütün sahələrdə daha da inkişaf etsin. Bu, onun davamçıları, yəni bizlər tərəfindən həyata keçirilir və keçiriləcəkdir. Əminəm ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də siyasi bacarığı və idarəçilik qabiliyyəti ilə Azərbaycanı gündən-günə daha da inkişaf etdirəcəkdir.

***Məhəmməd Hatəmi***
***İran İslam Respublikasının keçmiş Prezidenti***

***

Federasiya Şurasında Sizin Azərbaycan Respublikasının Prezidenti vəzifəsində fəaliyyətinizi yüksək qiymətləndirir və Azərbaycanın iqtisadiyyatda, mədəniyyətdə, ölkənin ictimai həyatında və dünya məkanında mövqelərinin möhkəmlənməsində sanballı nailiyyətlərini böyük məmnuniyyətlə qeyd edirlər.

***Valentina Matviyenko***
***Rusiya Federasiyası Federal Məclisinin***
***Federasiya Şurasının sədri***

***

Azərbaycan Respublikası Sizin rəhbərliyiniz altında dövlətçiliyin möhkəmlənməsi, daxili islahatların səmərəli həyata keçirilməsi, xarici siyasi məqsədlərin müvəffəqiyyətlə reallaşdırılması yolunda sanballı uğurlar nümayiş etdirir.

***Vladimir Filat***
***Moldova Respublikasının Baş naziri***

***

Mən çox şadam ki, Siz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın sürətli inkişafının əsasını qoyan Prezidentin - sələfiniz və atanızın siyasətini davam etdirirsiniz. Mən şəxsən özüm şahidi oldum ki, təkcə paytaxt Bakıda deyil, ölkənizin digər regionlarında da milli iqtisadiyyatın bütün sahələrində inkişaf davam edir.

***Rudolf Şuster***
***Slovakiya Respublikasının sabiq Prezidenti***

***

Siz uzun illər boyu Azərbaycan Respublikasına rəhbərlik etməklə öz həmvətənlərinizin məhəbbətini və dünya birliyində hörmət qazanmısınız. Sizin ölkənin pravoslav sakinlərinin ehtiyac və çətinliklərinə göstərdiyiniz qayğıya, Bakı yeparxiyası ilə faydalı əməkdaşlığa görə Sizə xüsusi təşəkkür edirəm.

***Kirill***
***Moskvanın və Bütün Rusiyanın Patriarxı***

***

Yorulmaz əməyiniz və səyləriniz sayəsində Azərbaycan sosial-iqtisadi inkişafla bağlı böyük uğurlara nail olub və beynəlxalq məkanda haqlı olaraq layiqli mövqe tutur. Biz dostlarımızın bu nailiyyətlərinə səmimi qəlbdən sevinirik. Sizin Tacikistan-Azərbaycan münasibətlərinin inkişafına töhfəniz də sanballıdır. Tacikistan Azərbaycan ilə tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir.

***Emomali Rəhmon***
***Tacikistan Respublikasının Prezidenti***

***

Davosda keçirilən Ümumdünya İqtisadi Forumunda Sizinlə görüşümüz mənə xoş təsir bağışlamış, ən maraqlı və yaddaqalan hadisələrdən biri olmuşdur. Fürsətdən istifadə edib, ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin intensivləşməsi qarşıdakı illərdə də davam edəcəkdir.

***Mişelin Kalmi-Rey***
***İsveçrə Konfederasiyasının Prezidenti***

***

Siz yaradıcı, məqsədyönlü fəaliyyətinizin bütün mərhələlərində öz istedadınızı, təcrübə və enerjinizi bütünlüklə Azərbaycan xalqının maraqlarına təmənnasız xidmətə həsr etmisiniz. Siz dahi atanız Heydər Əliyevin ənənələrini davam etdirərək, ölkənin inkişafının dönüş dövrlərindən birində onun rəhbəri tarixi missiyasını böyük məsuliyyət və müdrikliklə yerinə yetirirsiniz. Respublikada dövlətçiliyin gələcək təşəkkülü və möhkəmlənməsi, onun sosial-iqtisadi inkişafında sanballı uğurlar, Azərbaycan millətinin mənəvi-əxlaqi dirçəlməsi bu gün ayrılmaz surətdə Sizin adınızla bağlıdır.

***İlyas Umaxanov***
***Rusiya Federasiyası Federal Məclisinin***
***Federasiya Şurası sədrinin müavini***

***

Rusiya və Azərbaycan xalqları arasında əlaqələr durmadan inkişaf edir və bu, Sizin çox böyük şəxsi töhfənizdir! Sizin parlaq fərdi xüsusiyyətləriniz və gözəl insani keyfiyyətləriniz həmişə yeni tərəfdarlar cəlb etmişdir və cəlb etməkdədir, çoxsaylı insanları Azərbaycana dost edir.

***Svetlana Orlova***
***Rusiya Federasiyası Federal Məclisinin***
***Federasiya Şurası sədrinin müavini***

***

Pakistan xalqı Sizin dahi atanız mərhum Prezident Heydər Əliyevin uzaqgörənliyini, qardaş Azərbaycanın irəliləyişini, inkişafını və Sizin müdrik, mahir rəhbərliyinizi yüksək qiymətləndirir.

***Məhəmməd Nəvaz Şərif***
***Pakistanın sabiq Baş naziri***

***

Onun böyük səyləri və mühüm təşəbbüsləri sayəsində sülh, insanlar arasında qarşılıqlı anlaşma, dinlər və mədəniyyətlər arasında yaxınlaşma meyilləri artır və Azərbaycan da bu yolla gedir.

***Əbdüləziz Osman əl-Tuveyrci***
***ISESCO-nun baş direktoru***

***

"Sizin hərtərəfli düşünülmüş müdrik daxili və xarici siyasətiniz sayəsində Azərbaycanın beynəlxalq arenada rolu və nüfuzu möhkəmlənir, iqtisadiyyatın bütün prioritet sahələrində əsas göstəricilər, o cümlədən əhalinin həyat səviyyəsi artır."

***Şavkat Mirziyoyev***
***Özbəkistan Respublikasının Prezidenti***

***

"Sizin rəhbərlik etdiyiniz Azərbaycan Gürcüstanın mehriban dostu və tərəfdaşıdır. Gürcüstanla Azərbaycan arasındakı münasibətlər həqiqətən də nümunəvidir. Mən inanıram ki, biz regionda sabitliyin möhkəmləndirilməsi və gələcəkdə daha da gücləndirilməsi istiqamətində bundan sonra da bir çox faydalı addımlar atacağıq."

**Salome Zurabişvili**
***Gürcüstanın Prezidenti***

***

Biz Sizin ölkənizin tolerantlıq, mədəni mübadilə və təhsil vasitəsilə sülhün, tərəqqinin, ədalətin təşviqi istiqamətindəki dəyər və prinsiplərini dəstəkləyirik. Mən bu dəyərləri və prinsipləri qətiyyət və əzmkarlıqla təbliğ etməkdə qərarlıyam. Ümidvaram ki, ortaq məqsədlərimizə xidmət naminə birgə fəaliyyətimizi və bütün səviyyələrdə əməkdaşlığımızı davam etdirəcəyik."

**Amin Cemayel**
***Livan Respublikasının sabiq Prezidenti***

***

Azərbaycan Sizin müdrik rəhbərliyinizlə uğurlu sosial-iqtisadi inkişaf yolu keçib. Bu gün ölkənin davamlı inkişafına, xalqın rifahının daha da yüksəldilməsinə yönəlmiş mühüm dəyişikliklər həyata keçirilir. Dövlətlərimiz arasında dostluq və strateji tərəfdaşlıq əlaqələrinin möhkəmlənməsinə Sizin şəxsi töhfənizi Qazaxıstanda yüksək qiymətləndirirlər. Əminəm ki, münasibətlərimizdə etimada əsaslanan konstruktiv siyasi dialoq bundan sonra da Qazaxıstan-Azərbaycan əməkdaşlığının, ikitərəfli əlaqələrimizin bütün spektri üzrə dərinləşməsinə kömək edəcək.

**Kasım-Jomart Tokayev**

***Qazaxıstan Respublikasının Prezidenti***

***

Azərbaycan xalqının mənafeyinə yorulmadan göstərdiyiniz qayğı haqlı olaraq Sizə regionda və onun hüdudlarından kənarda hörmət və nüfuz qazandırıb. Dövlətlərimiz arasında dostluq münasibətlərinin inkişafına Sizin şəxsi töhfənizi biz Türkmənistanda yüksək qiymətləndiririk.

**Qurbanqulu Berdiməhəmmədov**

***Türkmənistanın sabiq Prezidenti***

***

Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə həm regional, həm də beynəlxalq səviyyələrdə sabitlik amilidir. Sizin yürütdüyünüz ölçülüb-biçilmiş daxili və xarici siyasət sayəsində ölkəniz ictimai-siyasi və sosial-iqtisadi inkişafın bütün sahələrində sanballı nailiyyətlər əldə edir, xalqın rifahının yüksəldilməsinə, habelə Azərbaycanın beynəlxalq arenada nüfuzunun möhkəmlənməsinə yönəldilmiş səmərəli dəyişiklikləri və islahatları dinamik surətdə həyata keçirir.”

**İqor Dodon**

***Moldova Respublikasının sabiq Prezidenti***

***

Gənc, lakin qədim tarixə malik bir ölkəni dünyanın ən hörmətli və tanınan ölkələrindən birinə çevirmək müstəsna istedad və qətiyyət tələb edir. Əminəm ki, ölkə Prezidenti kimi Siz Azərbaycan tarixində yeni səhifə açdınız. Çünki fəaliyyətiniz Azərbaycanı yüksəliş yoluna çıxarıb və ölkəniz əldə etdiyi uğurlarla beynəlxalq aləmdə tanınan nüfuz qazanıb.

***Viktor Orban***

***Macarıstanın Baş naziri***

Hər dəfə Bakıya gələndə mən həqiqətən də böyük tərəqqinin şahidi oluram. Deyərdim ki, inanılmaz tərəqqini görürəm. Buna görə mənim dostum Sizi təbrik etmək istəyirəm. Bu tərəqqiyə görə Azərbaycan vətəndaşlarını təbrik etmək istəyirəm. Mən Sizin nailiyyətlərinizə görə sevinirəm. Həm mənim nümayəndə heyətim, həm də mən özüm Azərbaycan xalqının və cənab Prezident, şəxsən Sizin səmimi dostunuzuq.

***Aleksandar Vuçiç***

***Serbiya Respublikasının Prezidenti***